# İqtisadi inkişafın gələcək istiqamətlərinin müəyyənləşdirilməsi güclü elmi əsaslara söykənir

## AMEA-nın 70 illik yubileyinə həsr olunmuş ümumi yığıncağında dövlətimizin başçısı İlham Əliyev Azərbaycan elminin sıçrayışlı inkişafını təmin etmək üçün dövrün tələblərinə uyğun islahatların aparılmasını, qazanılmış uğurların davamlılığının təmin edilməsini elmi ictimaiyyətin qarşısında mühüm vəzifə kimi qoydu



⇨ Əvvəli 3-cü səhifədə

Prezident İlham Əliyev bu faktı xüsusi qeyd etmişdir ki, əgər vaxtilə alimlərimiz böyük neft-qaz yataqlarını kəşf etməsəydilər və Azərbaycanın bu təbii resursları olmasaydı, müstəqil həyatımız başqa istiqamətdə inkişaf edə bilərdi. Müstəqil siyasət aparmaq, iqtisadi, o cümlədən enerji sahəsində müstəqil təşəbbüsləri irəli sürmək maliyyə, iqtisadi və siyasi cəhətdən böyük imkanlar tələb edir. Bu gün Azərbaycanın iştirakı olmadan enerji, həmçinin nəqliyyat və iqtisadiyyat sahəsində heç bir təşəbbüs irəli sürülə bilməz. Azərbaycan enerji resurslarından əməkdaşlıq əlaqələrinin daha da möhkəmləndirilməsi, milli maraqlarımızın təmin edilməsi və ölkəmizin qüdrətlənməsi naminə istifadə edir. Xatırlasaq, Azərbaycan Dövlət Neft Akademiyasının (Azərbaycan Dövlət Neft və Sənaye Universiteti) 90 illik yubileyinə həsr olunmuş mərasimdə də dövlətimizin başçısı İlham Əliyev bu məsələyə xüsusi diqqət yönəltmişdir: "Əgər 1994-cü ildə imzalanmış kontraktın icrasında mütəxəssislərimiz iştirak etməsəydilər, biz kontraktın imzalanmasından cəmi 3 il keçəndən sonra ilk nefti hasil edə bilməzdik. Bu, dünya enerji-neft praktikasında nadir bir təcrübə idi. ... Mütəxəssislərimiz, Dövlət Neft Akademiyasında təhsil almış mütəxəssislər, mühəndislər, alimlərimiz bu neft strategiyasının uğurla icra edilməsində çox böyük rol oynamışlar. Neft-qaz strategiyamız uğurla icra edilir və bu, uzunmüddətli strategiyadır. Onilliklər bundan sonra Azərbaycan bu sahədə, bu bölgədə aparıcı rolunu qoruyub saxlayacaqdır."

Avropaya inteqrasiya siyasətini həyata keçirən Azərbaycan dövləti dünyanın qabaqcıl ölkələrinin təcrübəsinin öyrənilməsinə və tətbiqinə daim maraq göstərir. Dövlətimizin başçısı İlham Əliyev yüksək ixtisaslı, yeni texnologiyaların tətbiqini bacaran gənc mütəxəssislərin yetişdirilməsini qarşıya ən ümdə vəzifə kimi qoyur. Prezident İlham Əliyevin Fərmanı ilə "2007-2015-ci illər üçün Azərbaycan gənclərinin xarici ölkələrdə təhsil almaları ilə bağlı Dövlət Proqramı"nın təsdiqlənməsi və uğurla icrası da bu məqsədə xidmət edir.

Dövlət Proqramında qeyd olunduğu kimi, Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra dövlət quruculuğu istiqamətində uğurlu addımlar atılıb. Beynəlxalq təşkilatlarla əməkdaşlıq inkişaf etmiş, qabaqcıl dünya ölkələri ilə ayrı-ayrı sahələrdə inteqrasiya prosesləri geniş vüsət almışdır. Ölkənin daxili və xarici siyasətini təmin edən təsisatların fəaliyyəti, müxtəlif sahələrdə yeni iş yerlərinin açılması, regionların inkişaf səviyyəsindəki fərqlərin aradan qaldırılması və iqtisadiyyatın yeni infrastrukturunun formalaşdırılması məqsədi ilə dövlət tərəfindən həyata keçirilən tədbirlər respublikamızda bir sıra ixtisaslar üzrə kadr çatışmazlığı probleminin həllini zəruri edir.

O da məlumdur ki, respublikamızda elm və təhsilin maddi-texniki bazası və kadr potensialı əsasən XX əsr ərzində formalaşmışdır. 1970-1980-ci illərdə ulu öndər Heydər Əliyevin bilavasitə təşəbbüsü ilə gənclərin keçmiş İttifaqın müxtəlif ali məktəblərinə kütləvi şəkildə göndərilməsi yüksək ixtisaslı mütəxəssislərlə təminat baxımından respublikanın qabaqcıl mövqelərə çıxmasına imkan yaratmışdı. Son illər ölkə iqtisadiyyatı ilə yanaşı, elmi, təhsili və mədəniyyəti də geniş inteqrasiya proseslərinə cəlb olunub. Elm və təhsil sahələrində alim, müəllim və tələbələrin mübadiləsi geniş vüsət alıb. Təbii ki, müasir mərhələdə ölkəmizin iqtisadi qüdrəti gənclərimizin yeni bilik, informasiya və texnologiyaları qavraması qabiliyyəti ilə bilavasitə bağlıdır. Mövcud intellektual potensialın zənginləşdirilməsi ölkəmizdəki elm və təhsil ocaqları ilə bərabər, xarici ölkələrdə kadr hazırlığı məsələsini də aktuallaşdırır, xarici dilləri mükəmməl bilən, informasiya-kommunikasiya texnologiyalarına yiyələnən və beynəlxalq diplomatik təcrübəni yaxşı mənimsəyən yüksək hazırlıqlı mütəxəssislərə olan ehtiyacın ödənilməsini tələb edir.

Gənclərin xarici ölkələrdə təhsili ilə bğalı Dövlət Proqramının əsas məqsədi məhz ölkədə rəqabət qabiliyyətli iqtisadi sistemin formalaşdırılması və davamlı inkişafın təmin edilməsi baxımından ölkənin müasir tələblərə cavab verən kadrlara ehtiyacının ödənilməsi, Azərbaycan gənclərinin ümumbəşəri dəyərlər əsasında layiqli ali təhsil almaları üçün lazımi şəraitin yaradılması, istedadlı gənclərin dünyanın aparıcı ölkələrində təhsil almaq imkanlarının genişləndirilməsi prosesinin mütəşəkkilliyi və səmərəliliyinin artırılmasını təmin etməkdən ibarətdir. Ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi siyasi xəttin hazırda uğurla davam etdirilməsi elmə olan münasibətdə də özünü qabarıq şəkildə göstərir. Elmi tədqiqatların iqtisadi siyasətlə uzlaşması üçün konkret addımlar atılır. "Azərbaycan Respublikasında 2009-2015-ci illərdə elmin inkişafı üzrə Milli Strategiyanın həyata keçirilməsi ilə bağlı Dövlət Proqramı"nın təsdiqlənməsi də bir daha dövlətimizin elmin inkişafına xüsusi diqqət və qayğısının bariz nümunələrindəndir. Dövlət Proqramında da bu reallıq qeyd edilir ki, dövlətin sosial-iqtisadi qüdrəti, müdafiə qabiliyyəti və milli təhlükəsizliyi, cəmiyyətin mədəni-mənəvi tərəqqisi və xalqın rifahı elmin inkişaf səviyyəsi ilə birbaşa əlaqəlidir. Cəmiyyətin inkişafında elmin fəal iştirakının təmin olunması elmin özünün təkmilləşdirilmiş təşkilati strukturunun yaradılmasını zəruri edir. Ən qədim sivilizasiya mərkəzlərindən biri olan Azərbaycanda elmin zəngin tarixi və ənənələri vardır. Azərbaycan alimləri əsrlər boyu antik dünya elmi irsinin müasir Avropaya çatdırılmasında yaxından iştirak edərək Şərqlə Qərb arasında elmin varislik əlaqələrinin qorunub saxlanması işinə dəyərli töhfələr vermiş, elmi təfəkkürün müxtəlif sahələrində meydana gətirdikləri dəyərli əsərlərlə bəşəriyyətin elmi-mədəni yüksəlişinə böyük xidmətlər göstərmişlər. Ulu öndər Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyev bu sahədə böyük nailiyyətlərin qazanılması, Azərbaycan elminin sıçrayışlı inkişafını təmin etmək üçün dövrün yeni şəraitinə uyğun olaraq islahatların aparılmasını, bu günədək müxtəlif elm sahələrində qazanılmış nailiyyətlərin bundan sonra daha da artırılmasını elmi ictimaiyyətin qarşısında mühüm vəzifə kimi qoyur: "Əlbəttə, alimlərin qarşısında duran vəzifələr çoxdur... mənim əsas istəyim ondan ibarətdir ki, ilk növbədə Azərbaycan elmi inkişaf etsin, digər tərəfdən ölkəmizin ümumi inkişafına öz töhfəsini versin. Yəni, elmi araşdırmalar sadəcə olaraq araşdırmalar üçün deyil, ölkə iqtisadiyyatının təhlükəsizlik potensialının gücləndirilməsinə yönəldilməlidir."

Hər bir sahədə əldə olunan uğurları faktlar əsasında diqqətə çatdıran dövlətimizin başçısı İlham Əliyev inkişafa geniş yol açan elmi araşdırmaların daha da genişləndirilməsinin vacibliyini bildirir. Bu gün ən ağrılı problemimiz Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsidir. Tariximizin araşdırılması, yeni-yeni faktların ortaya çıxarılması, bir sözlə, diplomatik mübarizə bu günümüzün əsas tələbləri sırasındadır. Xatırlasaq, ulu öndər Heydər Əliyev 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra ilk görüşünü ziyalılarla keçirdi. Ümummilli Lider tarixin saxtalaşdırılmasına yol verməməyi tarixçilərimizin qarşısında mühüm vəzifə kimi qoydu. Ötən dövr ərzində bu sahədə əldə olunan nəticələr göz önündədir. Azərbaycan Milli Elmlər Akademiyasının 2012-ci ildə keçirilən ümumi yığıncağında da dövlətimizin başçısı İlham Əliyev erməni yalanlarına qarşı real faktları qoymağı mühüm vəzifə kimi qarşıya qoymuşdur. Bu günlərdə keçirilən ümumi yığıncaq bir daha ölkəmizin uğurları fonunda əsas vəzifələrin açıqlanmasına işıq saldı: "Biz öz tariximizi, bu reallıqları dünya miqyasında daha da dolğun təqdim etməliyik. Nəyə görə? İlk növbədə, bizi tanısınlar, görsünlər ki, nə qədər zəngin tariximiz var. Digər tərəfdən, bizə qarşı təxribatlar aparılır. Yəni, Azərbaycan tarixini ermənilər təhrif etməyə çalışırlar və diaspor imkanlarından istifadə edərək, bəzi hallarda buna nail olurlar. "Erməni alimləri" xüsusilə regionun, Cənubi Qafqazın tarixi ilə bağlı yalan, uydurma əsasında kitablar dərc edirlər, təqdimatlar keçirirlər. Əlbəttə ki, bizim tariximiz bizim böyük sərvətimizdir. Bizim tariximiz onu göstərir ki, azərbaycanlılar bu torpaqda əsrlər boyu yaşamışlar. Bugünkü Ermənistan tarixi Azərbaycan torpaqlarında yaradılıbdır. Təkcə XX əsrin əvvəllərində çar Rusiyası tərəfindən dərc edilmiş xəritələrə baxmaq kifayətdir hər kəs görsün ki, indiki Ermənistan ərazisində yerləşən kəndlərin, şəhərlərin mütləq əksəriyyətinin adları Azərbaycan mənşəlidir. Budur reallıq. İrəvan xanlığının əhalisinin 70-80 faizi azərbaycanlılar olubdur. Çox şadam ki, mənim tövsiyəmlə İrəvan xanlığı haqqında çox sanballı elmi əsər yaradılıb, bir neçə xarici dilə tərcümə edilibdir. Bu əsərlər faktlar, həqiqətlər üzərində yaradılır."

Diplomatik mübarizədə qələbə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ədalətli həllində əsasdır. Tarixi həqiqətlər, real faktlar haqqın-ədalətin kimin tərəfində olduğunu bir daha təsdiqləyir. 24 illik müstəqillik tarixinə malik olan Azərbaycanın hər bir sahədə qazandığı uğurlar gələcəyə daha böyük inamla addımlamağa əsas yaradır. Dövlətimizin başçısı İlham Əliyev yığıncaqda bu əsas məqamı da diqqətə çatdırmışdır: "Hesab edirəm, vaxt gəlib çatıb ki, müstəqillik dövrünə həsr edilən sanballı elmi əsər də yaradılsın. Gələn il biz müstəqilliyimizin 25 illiyini qeyd edəcəyik. Hesab edirəm ki, o vaxta qədər əgər belə sanballı elmi əsər yaradılarsa, bayramımıza çox yaxşı töhfə ola bilər."

Cənab İlham Əliyev hər bir çıxışında tarixi paralellər fonunda Azərbaycanın müstəqillik tarixində keçdiyi yolun təhlilini verməyi qarşıya mühüm vəzifə kimi qoyur. Bu sahədə mətbuatın üzərinə böyük məsuliyyət düşdüyü bildirilir. Azərbaycan gəncliyi ölkəmizin müstəqillik yolunun heç də hamar olmadığını bilməli, bugünkü uğurlarımızı şərtləndirən siyasət barədə dolğun məlumatlandırılmalıdır. Reallıq budur ki, Azərbaycan ulu öndər Heydər Əliyevin düzgün müəyyənləşdirdiyi siyasətin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində ən yüksək zirvələri fəth edir.

✍ **Yeganə Əliyeva,**
***"İki sahil"***